ISSN: 2181-4341, IMPACT FACTOR (RESEARCH BIB) – 9.145, SJIF – 5,431

Mahmudova Şəlalə Əmirxan qızı

Filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti

ORCID ORG: 0009-0007-5313-6816

shalale.makhmudova@mail.ru

AZƏRBAYCAN VƏ TÜRK POEZİYASINDA BAYRAĞIN TƏRƏNNÜMÜ

Xülasə. Məqalədə Azərbaycan poeziyasının nümayəndələri ilə yanaşı türk şairlərinin də yaradıcılığı araşdırılmışdır. Hər iki ölkənin söz, sənət ustalarının bayraq mövzusunda yazdıqları əsərlər təhlilə cəlb olunmuşdur. Azərbaycanın sevilən şairlərindən Əhməd Cavad, Cəfər Cabbarlı, Bəxtiyar Vahabzadə, Fikrət Qoca, Sabir Rüstəmxanlı, Rafiq Yusifoğlunun dövlət bayrağına həsr etdikləri əsərlərinin gənc nəslin milli dəyərlərə məhəbbət ruhunda yetişməsində mühüm rola malik olduğu diqqətə çatdırılmışdır. Burada türk poeziyası nümayəndələrindən Alaattin Gövsa, Ali Ulvi Elöve, İbrahim Aşkı Tanıkın yaradıcılığı tədqiq olunaraq dövlət rəmzi olan bayraq haqqında yazdıqları şeirlərdən nümunələr gətirilmiş və münasibət bildirilmişdir. Qeyd olunmuşdur ki, milli bayraq ölkənin azadlıq və müstəqillik tarixinin simvolu, xalqın birliyi, vətənə məhəbbəti və dövlətə sədaqətin ən ali təcəssümüdür. Təhlilə cəlb olunmuş əsərlərdə bayraq müstəqilliyin, suverinliyin rəmzi kimi tərənnüm olunmuşdur.

Açar sözlər: Bayraq, milli dəyər, poeziya, tərənnüm, Vətənə məhəbbət

THE SINGING OF THE FLAG IN AZERBAIJAN AND TURKISH POETRY

Abstract. The article examines the creativity of Turkish poets as well as representatives of Azerbaijani poetry. The works written by masters of words and art of both countries on the subject of the flag were included in the analysis. It was brought to attention that the works dedicated to the national flag by Ahmed Javad, Jafar Jabbarli, Bakhtiyar Vahabzadeh, Fikret Goca, Sabir Rustamkhanli, Rafig Yusifoglu, among the beloved poets of Azerbaijan, have an important role in raising the young generation in the spirit of love for national values. Here, the works of representatives of Turkish poetry, Alaattin Gövsa, Ali Ulvi Elöve, Ibrahim Ashki Tanık, were studied and examples of poems written about the flag, which is a symbol of the state, were presented and their attitude was expressed. It was noted that the national flag is the symbol of the country's history of freedom and independence, the highest embodiment of the unity of the people, love for the motherland and loyalty to the state. In the works analyzed, the flag is glorified as a symbol of independence and sovereignty.

Keywords: Flag, national value, poetry, glorification, love for the homeland

Giriş

Bayraq hər bir millətin suverenliyini, mədəniyyətini, dəyərlərini özündə əks etdirən rəsmi dövlət atributudur. Müstəqilliyin, milli birliyin və bərabərliyin simvolu olan bayraq müxtəlif idman yarışlarında, beynəlxalq tədbirlərdə, diplomotik görüşlərdə mənsub olduğu ölkəni təmsil edir.

Üçrəngli, ay-ulduzlu Dövlət Bayrağı Azərbaycan xalqının türk etnik kökünü, müasir dünyəvi dəyərlərə sədaqətini və İslam mədəniyyətinə mənsubiyyətini ifadə edir. "Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etmişdir [1, s.6-7]".

Milli bayraq ölkənin azadlıq və müstəqillik tarixinin simvolu, xalqın birliyi, vətənə məhəbbəti və dövlətə sədaqətin ən ali təcəssümüdür. Bayraqla bağlı andiçmə, dövlət tədbirlərində qaldırılması, matəm günlərində yarıya endirilməsi xüsusi rəmzi məna daşıyır.

Ulu öndər Heydər Əliyev dövlətçiliyimizin rəmzi olan bayrağımızın müqəddəsliyini vurğulayaraq qeyd etmişdir ki: "Azərbaycanın bayrağı, sadəcə, bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun" [14]. Bayrağımız qürurumuzu təmsil etdiyi üçün onu qorumaq, sevmək ve ona dəyər vermək her birimizin ən ümdə borcumuzdur. Gənc nəslə milli dəyərlərimizə sevgi, hörmət hissi aşılamaq hər bir vətəndaşın yerinə yetirməli olduğu müqəddəs amalına çevrilməlidir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev çıxışında bildirmişdir ki: "Bizim bayrağımız qürur mənbəyimizdir. O, canımız, ürəyimizdir. Bu gün Azərbaycanın hər yerində Dövlət Bayrağı dalğalanır və bundan sonra da daim dalğalanacaq. Azərbaycan Respublikasının Dövlət Bayrağı xalqımızın keçdiyi şərəfli tarixin, milli birliyinin və azadlıq iradəsinin təcəssümüdür. Bayrağa hörmət və sədaqət hər bir vətəndaşın mənəvi borcudur" [12].

Tədqiqat

Bayraq mövzusunda yazılmış poetik nümunələrin orta məktəbdə tədrisi və təbliği şagirdlərin ideoloji tərbiyəsində, dövlət atributuna hörmətin formalaşmasında mühüm rol oynayır. Məktəblərdə "9 Noyabr Bayraq günü" münasibətilə xüsusi tədbirlər hazırlanır və bu tədbirlərdə şagirdlər bayrağa həsr olunmuş şeirləri böyük məhəbbət hissi ilə ifa edirlər. Bu mövzuda yazılmış əsərlər şagirdlərə vətənpərvərlik hissi təlqin edir. Hər bir şagird anlayır ki: "Üçrəngli bayraq artıq təkcə dövlət rəmzi deyil, həm də xalqın qüruru və zəfər simvoludur. 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Qələbədən sonra bayrağımız işğaldan azad edilmiş ərazilərdə ucaldıldı. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Xankəndi, Şuşa, Füzuli, Cəbrayıl və digər şəhərlərdə qaldırılan bayrağımız bu gün Azərbaycan xalqının əzm və birliyinin rəmzinə çevrilmişdir" [14].

Bayraq mövzusu həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatında ən çox müraciət olunan mövzular sırasındadır.

"Əsərlərində Azərbaycan bayrağına ən çox yer verən milli ideoloqumuz Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Parlamentinin kürsüsündə ilk dəfə "Bir kərə yüksələn bayraq bir daha enməz" şüarını səsləndirmişdir. Milli ideoloqumuz "Çağımızın Səyavuşu" əsərində üzünü gəncliyə tutaraq dedikləri bu gün də öz əhəmiyyətini itirməyib: "Ey gənclik, sənin öhdəndə böyük bir vəzifə var. Səndən öncəki nəsil yoxdan bir bayraq, müqəddəs ideal bir rəmzi yaratdı, on min müşkülatla ucaldaraq dedi ki: "Bir kərə yüksələn bayraq bir daha enməz!"

Əlbəttə ki, sən onun bu ümidini qırmayacaq, bu gün parlament binası üzərindən Azərbaycan türklərinin yanıq ürəyinə enmiş bu bayrağı təkrar o bina üzərinə tikəcək və bu yolda - Ya Qazi, ya Şəhid olacaqsan.

Milli operanın banisi, tanınmış müsiqiçimiz Üzeyir Hacıbəylinin fikrinə görə də bayrağımızın mənəvi mənası olaraq al (qırmızı) boya türkçülüyə, yaşıl boya islamlığa, mavi boya isə mədəniyyətə işarədir" [13].

Dövlət rəmzi sayılan bayraq mövzusu Azərbaycan poeziyasında hər zaman aktual olmuş, şairlərin yaradıcılığında poetik ifadəsini tapmışdır. Azərbaycan ədəbiyyatı nümayəndələrindən Cəfər Cabbarlı, Əhməd Cavad, Bəxtiyar Vahabzadə, Fikrət Qoca, Sabir Rüstəmxanlı, Ayaz Arabaçı, Rafiq Yusifoğlu və başqaları bayraqla bağlı yaddaqalan poetik nümunələr yaratmışlar.

Yaşar Qarayev haqlı olaraq qeyd etmişdir ki: "Üçrəngli poeziya bədii yaddaşa hamıdan əvvəl Əhməd Cavadın qələmi ilə həkk olunmuşdur" [3, s.6]. İstiqlalımızın nəğməkarı Əhməd Cavad güclü vətənpərvərlik duyğusu ilə 1919-cu ildə qələmə aldığı "Azərbaycan bayrağına" şeirində Turan ideologiyasını, türk soyunun şanlı tarixini sonsuz ehtiramla vəsf edərək deyir:

Türküstan yelləri öpüb alnını
Söyləyir dərdini sana, bayrağım!
Üçrəngin əksini Quzğun dənizdən
Ərməğan yollasın yara, bayrağım! [3, s.127]

Şair "Türküstan yelləri" və "Quzğun dəniz" (Quzğun - Xəzər dənizinin qədim adlarından biridir) ifadələri ilə bayrağın geniş türk coğrafiyasını əhatə etdiyini təcəssüm etdirir.

"Qayı Xan soyundan aldığın rəngi, Qucamış Elxanla, müsəlman bəgi" - misralarında şair türklərin qədim soylarından biri hesab olunan Qayı Xan və türk dövləti olan Elxanilərə işarə etmişdir.

Şeir bədii-estetik əhəmiyyətinə görə də diqqəti cəlb edir. Şair "Türküstan yelləri öpüb alnını", "Söyləyir dərdini sana, bayrağım!", "Ərməğan yollasın yara", "Gedərkən Turana çıxdın qarşıma" kimi metaforlardan, "Kölgən dövlət quşu, qondu başıma!" misrasında təşbeh və metafordan, "Allahın yıldızı, o gözəl pəri, Sığınmış qoynunda Aya, bayrağım!" misralarında metafor və təşbehdən, "İzn ver gözümdə coşan yaşıma - Dinlətsin dərdini aha, bayrağım" misrasında mübaliğədən və metafordan və s. istifadə etmişdir. Şeirin bütün bəndlərində istifadə olunan "bayrağım" sozü bədii xitabdır.

Ə.Cavadın 1918-ci ildə qələmə aldığı "Çırpınırdı Qara dəniz" şeiri də bütün türk dünyasının dilinin əzbəri olmuş, həmçinin bu şeirə Üzeyir Hacıbəyov mahnı bəstələmişdir. Hərbi-vətənpərvərlik ruhunda yazılmış bu şeir Azərbaycan və türk xalqlarının qardaşlığını vəsf edir. Nuru Paşanın komandanlığı ilə türk ordusu Bakını daşnak-bolşevik işğalından qurtarmağa gəlir. Şair türk bayrağına olan sevgisini belə ifadə edir:

Dost elindən əsən yellər,
Bana şeir, salam söylər.
Olsun Turan bütün ellər
Qurban Türkün bayrağına!
Yol ver Türkün bayrağına! [3, s.140]

Ə.Cavad 1919-cu ildə qələmə aldığı "Milli marş" şeirində - Dövlət himnimizdə də bayrağımızın müqəddəsliyini vurğulamış, onu daim qorumağa və yüksəltməyə can atan Vətən övladlarının olduğunu böyük qürur hissi ilə dilə gətirmişdir:

Namusunu hifz etməyə,

bayrağını yüksəltməyə

Cümlə gənclər müştaqdır [3, s.209].

Azərbaycan ədəbiyyatının parlaq simalarından biri olan Cəfər Cabbarlı da 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağına həsr etdiyi "Azərbaycan bayrağı" şeirində istiqlal və türkçülük ideyalarını tərənnüm etmişdir. Şeirdə bayrağın rəngləri türkçülük, islam və milli istiqlal rəmzi kimi izah edilir. Sonda şair Turan birliyi arzusunu dilə gətirir:

Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın [2, s.542].

C.Cabbarlının "Azərbaycan bayrağı" şeiri dövrün siyasi-ideoloji ab-havasını əks etdirən güclü vətənpərvərlik nümunəsidir.

Bütün türk dünyasının ortaq səsi hesab olunan Bəxtiyar Vahabzadənin 1998-ci ildə qələmə aldığı "Bayraq" şeirində Azərbaycanın dövlət rəmzinə bəslənən dərin sevgi tərənnüm olunur. Şeirdə bayraq varlığın cilası, mənlik, milli kimlik və müstəqilliyin rəmzi kimi vəsf olunur.

Zəfərdən doğulmuş, Göytürkdən qalan

Qurdbaşlı bayrağın balası bayraq [10, s.13] – misraları ilə şair bayrağın qədim Türk tarixinə (Göytürklərə) söykəndiyini və müasir müstəqil Azərbaycanın həmin kökdən gəldiyini vurğulayır.

Şair bayrağın daim ucalmasını arzu edir və söyləyir ki: "Yalnız zəfər çalmış şəhid önündə Səni alqış üçün əyilən görüm" [10, s.13].

Fikrət Qoca "Bayraq tutan oğullara" adlı poemasını Birinci Qarabağ döyüşlərində əsir düşmüş milli qəhrəmanımız Natiq Qasımovun igidliyindən, dövlət bayrağına olan sevgisindən təsirlənərək qələmə almışdır. Şair "Oqonyok" qəzetinin müxbirinin obyektivinə tuş gələn Natiqin igidliyini əks etdirən şəklini görür və hisslərini belə ifadə edir:

Elə orda, Xankəndində

Nəhəng heykəl olacaqsan.

Əlində də öz bayrağın.

Bayrağının altından da

İllər, nəsillər keçəcək

Zaman -zaman, axın-axın,

Sən oğulsan,

Mənim də atadır adım.

Şəklinə baxdım-baxdım,

Gözlərinə qurban olum,

ağlamadım.

Ağlamadım,

Oğul, kişi ağlayarmı

bərkdə, darda?

Bu günə də şükür olsun,

Çox şükür ki,

Bayraq da var, bayraq

tutan oğullar da [7, s.365-366].

Tanınmış söz ustası Sabir Rüstəmxanlı “Bayrağım” şeirini böyük iftixar hissi ilə tərənnüm etmişdir. Şeirdə Azərbaycan bayrağının rənglərinin daşıdığı mənalar poetik şəkildə belə ifadə olunmuşdur:

Mavi – türklük şərəfim, varlığımız əbədi!
Yaşıl – dinim, imanım, Sevgimizin Məbədi!
Qırmızı da al qanım, axdı vətən yolunda,
Əsarət zəncirini atmaq üçün qolumdan! [8]

Uşaq ədəbiyyatının tanınmış simalarından biri olan Rafiq Yusifoğlunun “Üçrəngli bayraq” şeiri kiçikyaşlı oxuculara vətənpərvərlik duyğuları aşılayır, onlara Dövlət bayrağına məhəbbət hissi təlqin edir. Şeirdə bayrağımızın üç rəngi və üzərindəki ay-ulduz, onun azadlıq, müstəqillik, şərəf rəmzi olduğu sadə, aydın və yaddaqalan dillə ifadə olunur:

Üstündəki ay, ulduz
Gəlir mənim xoşuma.
Ay üzüyə bənzəyir,
Ulduz onun qaşına [11, s.38].

Türkiyənin dövlət bayrağı 29 may 1936-cı il tarixində qəbul edilmişdir. Türk bayrağındakı qırmızı rəng Vətən uğrunda canlarından keçən şəhidlərin qanını təmsil edir. Üzərindəki ağ aypara və ulduz isə islamçılığın rəmzi kimi anlaşılır.

Bayraq mövzusu türk ədəbiyyatında da mühüm yer tutur və daim diqqət mərkəzində olmuşdur. Türk poeziyasının tanınmış nümayəndələri də bu mövzuya dönə-dönə müraciət etmişlər. Türk şairlərindən İbrahim Alaattin Gövsa, Ali Ulvi Elöve, İbrahim Aşkı Tanık və başqaları şeirlərində bayrağa olan sevgilərini tərənnüm etmişlər.

Türk ədəbiyyatında ilk uşaq şairi, eyni zamanda, pedaqoq və tərcüməçi kimi tanınan İbrahim Alaattin Gövsa (1889-1949) Türkiyə Cümhuriyyətinin yarandığı ilk illərdə ön sıralarda olmuşdur. Onun yaradıcılığında vətənpərvərlik, türkçülük ideyaları, milli mənlik mövzuları önəmli yer tutur. Çanaqqala cəbhəsində yaxından iştirak edən İbrahim Gövsa əsərlərində türk əsgərlərnin qəhrəmanlıq səhifələrini, mübarizliyini ifadə etmişdir. Şairin "Türk bayrağı" şeiri buna nümunə ola bilər:

Ertuğrul'un ocağında uyandın,

Şehidlerin kanlarıyla boyandın,

Nice düşman kalasına uzandın;

Sana selam ey şanlı Türk Bayrağı! [6, s.197].

Orijinalda əsərin adı "Osmanlı bayrağı" kimi verilmişdir. Digər mənbələrdə "Türk bayrağı" adı ilə verilmiş və hər bəndin sonunda "Osmanlı bayrağı" yox, "Türk bayrağı" kimi qeyd edilmişdir. Bundan başqa, orijinalda "Ertuğrulun ocağı" ifadəsi də sonrakı variantlarda "Kahramanlar bucağı" kimi dəyişdirilmişdir (Ərtoğrul Qazi Osmanlı Dövlətinin qurucusu Osman Bəyin babası ve Oğuzların Kayı boyunun lideridir).

Şair "Sana selam, ey şanlı Türk bayrağı" deyərkən bayrağa qarşı könüldən duyduğu sevgi və bağlılığını dilə gətirmişdir.

Ey şerefin, büyüklüğün firmanı,

Ey kavgalar tarihinin destanı,

Seni ister şu toprağın her yanı,

Sensiz tütmez milletimin ocağı [5, s. 39].

Şeirdə bayrağın olmadığı yerdə yurd-yuvanın da olmayacağı və azad şəkildə yaşayamağın mümkünsüzlüyü vurğulanmışdır.

Türk uşaq ədəbiyyatının tanınmış simalarından biri də Ali Ulvi Elövedir (1881-1975). Ali Elövenin hələ məktəbliykən yazdığı "Bir Çocuğun Tefekküratı" adlı ilk uşaq şeiri 1899-cu ildə "Çocuklara Rehber" jurnalında çap olunmuşdur. Elöve həm yazıçılığı, həm də pedaqoji fəaliyyəti ilə get-gedə uşaq dünyasını daha dərindən dərk etməyə başlamışdır. Ədibin 1912-ci ildə "Çocuklarımıza Neşideler", 1959-cu ildə "Çocuklarımıza Şiir" kitabları nəşr olunmuşdur. Bu kitablarda şairin öz şeirləri ilə yanaşı dünya ədəbiyyatından etdiyi tərcümələri də yer almışdır. Şairin əsərlərində əxlaqi əhəmiyyətə malik mövzular mühüm yer tutur. Bu şeirlərdə gənc nəslə Vətən, yurd sevgisi təlqin olunur.

"Vaz geçtim" şeirində şair Vətənə, bayrağa olan sevgisini belə bildirir:

Cenk edilen kale, hendek, ovanın

Bir yerinde şehitlerin izinden:

Ya bir gömlek, ya bir sancak bezinden

Bir parçacık bulsam onu vatanın

En mübarek hediyesi sayarak

Yaşlarımla ıslatır da içerim

Ve: “Kanını bunun için dök, derim,

Ey vatandaş! Çünkü namus bu bayrak! [4, s. 40]

Şair söyləyir ki, döyüşün getdiyi yerdə bu Vətən üçün canını fəda etmiş bir şəhidimizin köynəyini, yaxud bayrağımızın bir parçasını tapsam, onu gözyaşlarımla isladıb Vətənin ən mübarək hədiyyəsi hesab edərəm. Müəllif gənclərə müraciətlə deyir ki, ey vətəndaş, bayraq bizim namusumuzdur. Bayraq üçün qanını tökməkdən çəkinmə.

Türk ədəbiyyatının tanınmış simalarından biri də İbrahim Aşkı Tanıkdır (1874-1977). İbrahim Aşkı Tanık 1917-ci ildə qələmə aldığı “Çocukların Şiir Defteri” adlı şeir kitabında din, təbiət, insan, vətən sevgisi kimi mövzulara toxunmuşdur. Bura daxil olan şeirlər 1910-1915 illər arasında yazılmışdır. Şeirlərdən səkkizi əruzda, digərləri isə heca vəznində yazılmıştır.

Ədibin1914-cü ildə “Mektep Terbiyesi” və 1940-cı ildə “Terbiye işi” adlı kitabları çap olunmuşdur. Müəllif bu kitablarda təlim-tərbiyə məsələlərinə xüsusi önəm vermişdir.

Şairin “Bayrağımız” adlı şeiri də yüksək vətənpərvərlik duyğuları aşılayan poetic nümunədir:

Bu al bayrak Türk ilinin bayrağı;

Evet bütün mü’minlerin sancağı;

Şehîd kanı gazilerin yüz ağı,

Durur böyle yedi göğün üstünde.

Bu ay yıldız nöbetçiler durağı,

Karanlıkta izcilerin çırağı;

Süleyman’ın böyle midir otağı,

Uçar demek yedi göğün üstünde.

Ulu Tanrı gün doğuşu gözleriz,

Karanlıkta tan yerini özleriz,

Sen olmazsan bir alay öksüzleriz,

Göz aydın yap yedi göğün üstünde” [9, s. 25].

Şeirin məzmunundan da göründüyü kimi, şair türk bayrağının bütün möminlərə aid olduğunu bildirir. Onu şəhidlərin qanı, qazilərin üz ağı adlandırır. Üzərindəki ay və ulduzu göy üzünün növbətçisi olduğunu söyləyir.

Mithat Cemal Kuntay (1885-1956) ixtisasca hüquqşünas olmasına baxmayaraq, uşaqlıqdan ədəbiyyata böyük maraq göstərmişdir. O, roman, pyes və şeirlər yazmış, tək şeir kitabı olan "Türkün Şehnamesi"nde 82 şeiri yer almışdır. Şairin ən çox sevilen əsərlərindən biri "On beş yılı karşılarken" adlı şeiridir. Bu şeiir epik duyğularla yazılmış ve türk xalqının vətənə olan sevgisini ifadə edir:

Asrın yaşamak hakkını vermez sana kimse;
Sen asrını üstünde izin varsa benimse;

Bayrakları bayrak yapan üstündeki kandır
Toprak eğer uğrunda ölen varsa vatandır [15].

Şeirin son misrası hər kəsin dilinin əzbəri olmuş və gəncləri Vətən uğrunda mübarizəyə səsləyən çox güclü şüara çevrilmişdir.

Nəticə

Göründüyü kimi, həm Azərbaycan, həm də türk ədəbiyyatında kifayət qədər bayraq atributu öz bədii ifadəsini tapmışdır. Qeyd olunduğu kimi, bu əsərlər gənc nəslin bədii zövqünü formalaşdırmaqla yanaşı, onları vətənpərvərlik ruhunda tərbiyə edir. Bu şeirləri mütaliə edən oxucuda milli ruh baş qaldırır, dövlət atributlarına hörmət və məhəbbət hissi oyanır. Hər bir vətəndaş müstəqilliyin rəmzi olan Dövlət bayrağını daim ucalarda tutmağa can atmalı, onu qorumalıdır. Çünki bayraq hər bir xalqın kimliyini sübut edən qürur mənbəyidir və ona təzim etmək hər bir vətəndaşın ən ali vəzifəsidir.

Ədəbiyyat:

1. Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir! Metodik vəsait. F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı, 2023.-63s.
2. Cabbarlı. C. Seçilmiş əsərləri. Bakı, "Çaşıoğlu", 2004, 568 səh.
3. Cavad Ə. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 296 səh.
4. Çavuş, M. Z. (2007). Ali Ulvi Elöve'nin şiirlerinin eğitsel açıdan incelenmesi. (Yüksek lisans tezi). YÖK Tez Merkezi veri tabanından erişildi (Tez No: 211248).
5. Gövsa İ. A. (2012). Çocuk şiirleri (7. b.). Ankara: Elips Kitap.
6. Gövsa İ. A T.C.Kültür Bakanliği Milli Kütüphane Basimevi. Ankara – 1995, 307 sah.
7. Qoca F. Seçilmiş əsərləri. IV cild. Bakı, Uniprint, 2015, 368 səh.
8. Rüstəmxanlı S. Seçilmiş əsərləri. Şeirlər (2010-2022). IV cild. Bakı, Qanun nəşriyyatı, 2022, 669 səh.
9. Tanık İ. A. (2011). Çocukların şiir defteri. (M. Özdemir, Yay. haz.) İstanbul: Timaş Yayınları.
10. Vahabzadə B. Ağıl başqa, ürək başqa. Bakı, "Azərbaycan" nəşriyyatı, 2000, 288 səh.
11. Yusifoğlu R. Günlərimiz, aylarımız. Bakı, "Azərbaycan" nəşriyyatı, 2003, 47 səh.
12. https://manera.az/index.php?newsid=7707
13. https://edebiyyat-az.com/?m=20251112
14. https://525.az/news/129396-ucrengli-bayraginla-mesud-yasa-seirle
15. https://www.antoloji.com/mithat-cemal-kuntay